Sumqayıt kimya sənayesi - 70

# Bir ömür haqqında ürək sözlərim

**İllər ötür. Bir vaxt real olan hadisələr sonradan şirin-acılı xatirələrə çevrilir. Yazıya bu fikirlərlə başlamağım heç də təsadüfi deyildir. Natiq müəllimlə etdiyim söhbətləri, keçirdiyim görüşləri indi həvəslə anır, keçmişə uzun illərin anım pəncərəsindən baxıram və öz-özümə düşünürəm ki, nə yaxşı ki, xatirələr vardır.**



70-ci illərin əvvəlləri idi. Şəhər qəzetinin müxbiri kimi Sintetik kauçuk zavodu partiya komitəsinin katibi Natiq Qulubəyovla tez-tez telefonla danışır, ondan plan göstəriciləri barədə operativ məlumatlar alırdım. Onunla müəyyən tədbirlərdə də görüşürdüm. Mehriban, səmimi insan olduğuna şübhəm qalmamışdı. Lakin Natiq müəllimlə bir görüşüm, onun mənəvi dünyasının nə qədər zəngin olduğunu, həssaslığını, xüsusilə yaradıcı insanlara diqqətçilliyini mənim üçün aşkarladı.



Sintetik kauçuk zavodunun iclas salonunda o vaxtlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyən Heydər Əliyevin "Literaturnaya qazeta"da çıxan "Qoy ədalət zəfər çalsın" məqaləsi müzakirə olunurdu. Mən də bir müxbir kimi salonda idim. Yığıncağı zavod partiya komitəsinin katibi Natiq Qulubəyov aparırdı. Birdən gözü mənə sataşdı. "Qüdrət müəllim, xahiş edirəm qalxın yuxarı", - dedi. Üzrxahlıq etsəm də, xeyri olmadı. Məni tribunaya qaldırdı.

Bunu deməkdə məqsədim odur ki, o vaxt nüfuzlu bir vəzifə sahibi olan Natiq müəllimin belə sadə və səmimi rəftarı məni valeh etmişdi. Onun yazı-pozu adamlarına olan bu hörmətinin haradan gəldiyini bilmirdim. Lakin çox sonra öyrəndim ki, Natiq müəllim jurnalist ailəsində, ziyalı ocağı başında böyüyüb. Atası Abdulla ixtisasca jurnalist olub. Lakin Natiq dörd yaşında ikən - 1943-cü ildə Böyük Vətən müharibəsində həlak olub. Anası Tərlalə isə müəllim işləyib. Respublikanın Əməkdar Müəllimi olub.

HAŞİYƏ: Natiq Abdulla oğlu Qulubəyov 1939-cu il fevralın 25-də qədim Naxçıvan şəhərində dünyaya gəlmişdir. Orta təhsilini də bu diyarda almışdır. 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinə daxil olmuşdur. 5 illik təhsil illəri də ötüb keçmişdir. 1961-ci ildə ali təhsilli mütəxəssis kimi Sumqayıta təyinat almışdır. Sintetik kauçuk zavodunun nəzarət ölçü cihazları və avtomatika sexində çilingər kimi əmək fəaliyyətinə başlamışdır. Usta, mexanik, sex rəisinin müavini, sex rəisi olmuşdur. Komsomol və partiya işlərində çalışmışdır. Nəhayət, "Azərikimyatəmir" trestində müdir müavini işləmişdir. 2000-ci ildən isə təqaüddədir.



Bunlar Natiq müəllimin keçdiyi ömür yolundan qısa fraqmentlərdir. Amma bu yol çox enişli-yoxuşlu olub. Dolanbaclardan keçib. Uğurdan başı gicəllənməyib, çətinlikdən qorxmayıb, illəri şərəflə yola salıb, 76 yaşın zirvəsinə qalxıb.

Natiq müəllimdən yazmaq istəyərkən onun hansı məziyyətlərini önə çəkmək barədə çox düşünüb-daşındım. Ömrünün 40 ildən çoxunu kimyaçılar ailəsində keçirməsindən, şəhərin inkişafında layiqli yer tutmasından, xeyirxah insan olduğundan söz açımmı? İnsanlığın ən ali zirvəsi olan sadəliyindən, səmimiyyətindən danışımmı? Gözəl ailə başçısı, mehriban ata, istəkli baba olduğunu vurğulayımmı?

Natiq Qulubəyovun müsbət məziyyətləri birdirmi, beşdirmi?.. Ona görə də haqqında bildiyim faktları dəqiqləşdirmək üçün ona baş çəkməkdən ötrü 2-ci məhəllədəki mənzilinə getdim. Özü də şəhər Ağsaqqallar Şurasının sədri, gənclik dostu Müzəffər Gülümovla. Qapını Natiqin ömür-gün yoldaşı Sönməz xanım açdı. Mehribancasına bizi evə dəvət etdi.

Natiq müəllimin otağına keçdik. Həyəcanımdan dilim söz tutmurdu. Gəncliyində bir an olsun sakitlik bilməyən Natiq müəllim bizimlə yenə əvvəlki səmimiyyətlə görüşdü, amma yataqda. Ona görə ki, xəstəlik nəticəsində ayaqlarını itirmişdi. Bu vaxt onun hansı hissləri keçirdiyini deyə bilmərəm. Amma mən xəyalən ötən illəri dolanırdım. Natiq müəllimin sağlam, gümrah illərini xatırlayırdım. O illəri ki, Sintetik kauçuk zavodunda yorulmaq bilmədən çalışırdı. O illəri ki, uzun müddət zavod partiya komitəsinin katibi kimi məsul bir vəzifəni şərəflə yerinə yetirirdi.

Məni düşüncələrdən Natiq müəllimin sözləri ayırdı: "Qüdrət müəllim, necəsən, səni nə vaxtdır görmürəm. Amma yazılarını həvəslə oxuyuram..." Onun gülə-gülə, səmimiyyətlə söylədiyi sözlərə, sağ olun, Natiq müəllim, - dedim. Sifətindəki təbəssümü, həyata olan inamını görüb, qəlbən sevindim.

Elə bil Natiq müəllim ürəyimdən keçənləri duymuşdu: "Sağ olsun yaxşı adamlar, dostlar, tanışlar. Onlar mənə həmişə diqqət və qayğı göstərirlər. Möhtərəm prezidentimiz, xalqımızın əbədiyaşar oğlu Heydər Əliyev məktəbinin layiqli davamçısı İlham Əliyevin müstəqil Azərbaycanın inkişafı naminə apardığı işlər məni ruhlandırır. Məhz bu layiqli insanın Sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm.

Sumqayıt Şəhər Ağsaqqallar Şurasının sədri Müzəffər Gülümov bir an olsun məni gözdən qoymur. Tez-tez gəlir, zəng edir. Həyat yoldaşım Sönməz, qızlarım, kürəkənlərim, nəvələrim məni darıxmağa qoymurlar".

Müzəffər müəllim söhbətə müdaxilə edərək dedi ki, Natiqi 50 ilə yaxındır ki, tanıyıram və həm də onunla qonşuyam. O həmişə deyib-gülən, mehriban olub. Bu gün də elədir. Natiq müəllimin ailəsinə, uşaqlarına yaxşı mənada qibtə edirəm. Həyat yoldaşı, qızları, kürəkənləri ona necə böyük məhəbbətlə qayğı göstərirlər.



Bir də Natiq təkcə doğmaları üçün deyil, hamı üçün, dost-tanış üçün, qonşular üçün əzizdir. Biz qonşular tez-tez onun başına yığışır, şirin, səmimi söhbətlərini dinləyirik. Şən zarafatlarına qulaq asırıq.

Natiqi bizə sevdirən, həm də onun geniş ürəkli olmasıdır. Heç vaxt, heç kimin ardınca danışmır, dodaq büzmür.

Çay süfrəsi arxasında Natiq müəllimlə çox söhbət etdik. Bu layiqli insan haqqında əlavə şeylər də öyrəndim. Öyrəndim ki, Natiq vaxtilə Naxçıvan Musiqi Məktəbində oxuyub. Uzun illər Naxçıvan ansamblının üzvü kimi el şənliklərində klarnet çalıb.

Hələ orta məktəbdə oxuyarkən anası onu mühəndis görmək istəyib. Ona görə də ana arzularının işığına düşüb, ali təhsilli mühəndis olub. Çoxlarına kömək əli uzadıb. Ondan kimyaçı peşəsinin sirlərini öyrənən, həyat dərsi alan, bu gün ləyaqətlə çalışan neçə-neçə insanın adını çəkdi Natiq müəllim. 76 illik ömrünün 54 ilini Sumqayıtda keçirən bu həssas qəlbli insan 10 il şəhər partiya komitəsinin üzvü olub. Üç çağırış şəhər Sovetinin deputatı seçilib. Zavod partiya komitəsinin katibi olarkən müəssisəsi iki dəfə keçmiş İttifaq üzrə keçirilən sosializm yarışının qalibi olub. Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində şəhərimizi yüksək səviyyədə təmsil edib. Neçə-neçə xarici ölkədə təcrübə keçib. Erməni quldurlarına nifrət edir. Süfrəmizin tör-töküntüləri ilə yaşayan bu şərəfsiz insanların mənfur hərəkətləri barədə ürək ağrısı ilə danışdı.

Natiq müəllimin hobbisi isə həmişə kitab olmuşdur və bu gün də belədir.

Natiq müəllim bir qədər kövrək səslə dedi ki, mən harada və hansı vəzifədə çalışmışamsa o kollektiv haqqında həvəslə, razılıqla danışıram. Lakin kimyaçılar ailəsindən söz düşəndə riqqətə gəlirəm, kövrəlirəm. Çünki ömrümün 40 ili bu əzmkar insanlar arasında keçib. Bu peşə çətin olduğu qədər də şərəflidir. İndi biləndə ki, bu il Azərbaycan kimyasının 70 illik yubileyidir, çox sevinirəm. Bu əlamətdar hadisə münasibətilə layiqli peşə sahibi olan kimyaçıları ürəkdən təbrik edirəm. Vaxtilə mənimlə çiyinçiyinə işləyən və bu gün həyatda olmayanlara isə ulu Tanrıdan rəhmət diləyirəm.

Söhbətimiz sona çatan kimi nəvələri onu dövrəyə aldılar. Üzgözündən öpdülər. O, qollarını uşaqlara açdı.

Biz Natiq müəllimlə görüşüb, ayrıldıq, yeni görüşlərə qədər dedik.

**Qüdrət MUĞANLI,**
Respublikanın Əməkdar Jurnalisti